**05**

**31 yanvar 2018-ci**

**“İnsanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası”nın təsdiq edilməsi barədə**

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 622 nömrəli Fərmanının 4-cü hissəsinin üçüncü abzasının icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 14.5-ci bəndini və 19-cu hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1.“İnsanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası” təsdiq edilsin (əlavə olunur).

2.“Xəstəliklərin Beynəlxalq Təsnifatının onuncu redaksiyasına (XBT 10) keçilməsi ilə əlaqədar, doğum və ölüm hallarını təsdiqləyən tibbi sənədlərin təkmilləşdirilməsi barədə” Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2001-ci il 02 oktyabr tarixli 100 nömrəli əmri və “Ölüm haqqında tibbi şəhadətnamə”nin verilməsi qaydasına dair Təlimat”ın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2015-ci il 03 iyul tarixli 52 nömrəli əmri və “Tibbi statistika səhəsində işin təkmilləşdirilməsi barədə” Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2016-cı il 30 dekabr tarixli 100 nömrəli əmrinin 1 nömrəli əlavəsinin 1.3.20-ci və 1.3.21-ci yarımbəndləri ləğv edilsin.

3.Hüquq və daxili nəzarət sektoruna (E.Əzizov) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4.Qərarın icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazirin səlahiyyətlərini icra edən** **Abbas Vəlibəyov**

Kollegiyanın məsul katibi vəsifəsini
müvəqqəti icra edən Səbinə Əhmədova